**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# Bakıda Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun (ATAF) Himayəçilər Şurasının ikinci iclası keçirildi

**No: 08/03/03**
**17.11.2008**

15 noyabr 2008-ci ildə Bakıda, Atatürk Mərkəzində Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) təsisçisi olduğu Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun (ATAF) Himayəçilər Şurasının ikinci iclası keçirildi. İclasda Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti dövlət orqanlarının, elm dairələrinin, qeyri-hökumət təşkilatlarının, iş dünyasının nümayəndələri və nüfuzlu ictimai-siyasi xadimlər iştirak etdilər.

İclasda Himayəçilər Şurasına yeni üzvlərin qəbul edilməsi barədə məsələyə baxıldı. Müzakirələr nəticəsində Himayəçilər Şurasına 26 nəfər üzv qəbul edildi və bununla da, Himayəçilər Şurasının üzvlərinin sayı 52-dən 78-ə qədər artdı.

Daha sonra iclas iştirakçıları 28-29 sentyabrda Türkiyənin Kızılcahamam bölgəsində keçirilən Araşdırma Konfransının nəticələri əsasında hazırlanmış "Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun 2009-2015-ci illər üçün Strategiya Sənədi"nin ilkin versiyasını müzakirə etdilər. Qərara alındı ki, toplantı iştirakçıları Strategiya Sənədi barəsində irad və qeydlərini 2008-ci ilin noyabr ayının sonuna qədər yaradılmış redaksiya heyətinə bildirdikdən sonra, sənəd bir daha Himayəçilər Şurasının müzakirəsinə təqdim edilsin.

İclasda həmçinin yuxarıda qeyd edilən Araşdırma Konfransı zamanı keçirilməsi barədə təşəbbüs irəli sürülən "Birinci Beynəlxalq Azərbaycan Türkiyə Tarix Konqresi"nin 2009-cu ilin iyun ayının ilk yarısında Bakıda təşkil edilməsi qərara alındı və bununla əlaqədar müvafiq Təşkilat Komitəsi yaradıldı. Himayəçilər Şurasının növbəti iclasının da Konqres ərəfəsində Bakıda keçirilməsinə qərar verildi.



Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATAF-ın İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**

İclasda həmçinin ATAF İdarə Heyətinə yeni sədrin seçilməsi məsələsi də müzakirə edildi. İclas iştirakçıları müzakirələr nəticəsində bu vəzifəyə Türk Tarix Qurumunun sabiq sədri Prof. Dr. Yusuf Halaçoğlunu seçdilər.

Bundan əlavə, iclasda 2009-cu il üçün ştat cədvəli və büdcəsi də müzakirə edilərək Himayəçilər Şurasının üzvləri tərəfindən təsdiqləndi.

*ATAF-ın qısa tarixi*

15 may 2006-cı ildə Türkiyə Tarix Qurumu, Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu, Bakı Dövlət Universiteti və ATİB-in təşkilatçılığı ilə BDU-da "Azərbaycan və Türkiyə Tarixində Erməni Məsələsi" adlı konfrans təşkil edilmişdi. Konfransın yekununda adıçəkilən 4 təşkilat tərəfindən Bakı Bəyannaməsi qəbul edilmiş və Dördtərəfli Əməkdaşlıq Protokolu imzalanmışdır. Adıçəkilən qurumlar bu sənədlər əsasında iki ölkənin ümumi məsələsi olan "Azərbaycan və Türkiyə tarixində erməni problemi" üzrə sənədlərə əsaslanan həqiqətlərin müəyyən edilməsi və ictimaiyyətin məlumatlandırılmasını təmin etmək məqsədilə birgə fəaliyyət göstərməyi qərara almışdılar. Dördtərəfli Əməkdaşlıq Protokolunun həyata keçirilməsi üçün yaradılan Koordinasiya Şurasının 27 fevral 2007-ci ildə Ankarada keçirilən iclasda işlərin daha sistemli şəkildə həyata keçirilməsi üçün qeyri hökumət təşkilatının, yəni Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondunun yaradılması qərara alındı. 2007-ci ildə təşkilatın qeydiyyat məsələləri həll edildi və müvafiq sənədlər 2008-ci ilin yanvarında Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən təqdim edildi. Təşkilatın Himayəçilər Şurasının ilk iclası 14 iyun 2008-ci ildə Ankarada təşkil edildi. Həmçinin, 27-28 sentybar 2008-ci ildə Türkiyənin Kızılcahamam qəsəbəsində təşkilatın 2009-2015-ci illər üçün strategiyasının hazırlanması məqsədilə Araşdırma Konfransı keçirilmişdir.

Təşəbbüsün məqsədi Azərbaycan və Türkiyə tarixinin araşdırılması və ortaq problemlərin müəyyən edilməsinə köməklik göstərilməsi, onların həlli yollarının müəyyən edilməsi və təkliflər hazırlanması; regionda xalqların sülh və əmin-amanlıq mühitində yaşamalarına və iqtisadi inteqrasiyaya mane olan problemlərin həllinə və bu çərçivədə regionun iqtisadi rifahının yüksəlməsinə töhfə verməkdən ibarətdir.



Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az

**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATAF-ın İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**